AZƏRBAYCAN RESPUBLİKASININ TƏHSİL İNSTİTUTU

AZƏRBAYCAN RESPUBLİKASI
ELM VƏ TƏHSİL NAZİRLİYİ

Kapital Bank

RESPUBLİKA FƏNN OLİMPİADALARI

# Coğrafiya 11

Ad________________ Soyad________________

* İmtahan müddəti 180 dəqiqədir.
* Hər səhv cavab öz dəyərinin ¼ - ni aparır.
* Hər sual 4 bal ilə qiymətləndirilir.
* Nəzarətçilərə cavab kartları və buraxılış vərəqələri təqdim olunur.
* Sual kitabçasında hər hansı texniki qüsur aşkarlandığı və kitabçanın şagirdin məlumatlarına uyğun olmadığı halda (fənn,bölmə,sinif) imtahandan əvvəl mütləq otaq nəzarətçisinə bildirilməlidir.
* Rayon (şəhər) mərhələsinin nəticələrini 09.01.2024-cü il tarixindən etibarən portal.edu.az platformasında şəxsi kabinetinizdən və təhsil aldığınız ümumtəhsil müəssisəsindən öyrənə bilərsiniz.

UĞURLAR!

24.12.2023

**1**. Şimali Amerika litosfer tavası üçün hansı fikirlər ***yanlış*** hesab edilə bilər?
1. Şimal və qərb istiqamətində hərəkət edir.
2. Havay adaları bu tava üzərində yerləşən ölkəyə aiddir.
3. Afrika tavası ilə ayrılma zonasında Yaşıl Burun adaları yerləşir.
4. Atlantik okeanının ən dərin nöqtəsi bu tavanın sərhədində yerləşir.
5. Şelf düzənlikləri mövcud deyil.
6. Qalapaqos adaları yerləşir.
A) 3, 4, 5
B) 1, 2, 4
C) 3, 5, 6
D) 2, 5, 6
E) 1, 2, 6

**2.** Uyğunluğu müəyyən edin.

| Faydalı qazıntılar | | | |
|---|---|---|---|
| № | Filiz | Qeyri-filiz | Yanar |
| 1 | mis | travertin | torf |
| 2 | dəmir | alunit | neft |
| 3 | qızıl | kükürd | kömür |
| 4 | molibden | almaz | təbii qaz |
| 5 | qranit | seolit | torf |
| 6 | xromit | travertin | perlit |

A) 2, 4, 5
B) 2, 3, 6
C) 4, 5, 6
D) 1, 2, 3
E) 1, 3, 4

**3**. And və Qafqaz dağları üçün ümumi xüsusiyyətləri müəyyən edin.
1. Üç yarımkürədə yerləşir.
2. Konvergent sərhəddə yerləşir.
3. Ərazisindən axan çaylar yalnız bir okean hövzəsinə aiddir.
4. Ərazisi bir neçə ölkəyə məxsusdur.
5. Sönmüş vulkan kraterlərinə rast gəlinir.
6. Ən hündür zirvəsi 6000 metrdən çoxdur.
A) 1, 3, 6
B) 2, 4, 5
C) 2, 4, 6
D) 1, 2, 5
E) 4, 5, 6

**4**. Cədvələ əsasən düzgün bəndi müəyyən edin.

| Coğrafi mövqeyinə görə | | | | |
|---|---|---|---|---|
| № | Dəniz | Daxili | Kənar | Adalararası |
| 1 | Oxot | | ✓ | |
| 2 | Sulavesi | | | ✓ |
| 3 | Baltik | | ✓ | |
| 4 | Şimal | ✓ | | |
| 5 | Fici | | ✓ | |
| 6 | Azov | ✓ | | |

A) 1, 2, 6
B) 2, 3, 5
C) 1, 4, 6
D) 1, 4, 5
E) 2, 3, 6

**5.** Cədvələ əsasən, Böyük Qafqaz və Kiçik Qafqaz tektonik zonalarını müqayisə edin.

| ***Oxşar*** | ***Fərqli*** |
|---|---|
| 1. Mezozoy yaşlı süxurlara rast gəlinir.<br>2. Filiz mənşəli faydalı qazıntılara rast gəlinir.<br>3. Yayı quraq keçən soyuq iqlim yarımtipi yayılmışdır. | 4. Yarımsəhra landşaftlarına rast gəlinir.<br>5. Yağıntıları bərabər paylanan mülayim isti iqlim yarımtipi yayılmışdır.<br>6. Hündürlüyü 4000 metrdən yüksək zirvələr mövcuddur. |

A) 1, 2, 5
B) 1, 3, 4
C) 2, 3, 6
D) 1, 2, 6
E) 4, 5, 6

**6**. Kür çayının sağ sahilində yerləşən və mütləq hündürlüyü daha çox olan düzənlik:
A) Gülüstan
B) Şirvan
C) Muğan
D) Gəyən
E) Mil

**7**. Düzgün fikirləri müəyyən edin.
1. Kaledon dağəmələgəlmə mərhələsi Silur və Devon dövrlərində baş vermişdir.
2. Tibet yaylası və Sixote-Alin dağları eyni dağəmələgəlmə mərhələsində yaranmışdır.
3. Böyük Xinqan dağları Kimmeri, Kap dağları isə Hersin dağəmələgəlmə mərhələsində yaranmışdır.
4. Ural, Skandinaviya və Böyük Suayrıcı dağları platforma mərhələsindədir.
5. Respublikamızın ərazisində yayılmış ən qədim süxurlar Proterozoy yaşlıdır.
6. Qədim quru parçaları olan Lavrasiya və Qondvana Paleozoy erasında müasir materiklərə parçalanmışdır.
A) 3, 5, 6
B) 1, 2, 4
C) 2, 4, 6
D) 1, 2, 5
E) 3, 4, 5

**8.** Əgər Yer kürəsi xəyali oxu ətrafında 1°-ni 6 dəqiqəyə dönsəydi, XVIII saat qurşağının şərq sərhədi hansı coğrafi uzunluqda yerləşərdi?
A) 175°q.u.
B) 165°ş.u.
C) 85°q.u.
D) 155°ş.u.
E) 122°q.u.

**9**. Hansı şəhərlərin orta illik temperaturu daha yüksəkdir?
1. Xaçmaz
2. Şirvan
3. Culfa
4. Naxçıvan
5. Neftçala
A) 4, 5
B) 1, 3
C) 3, 4
D) 2, 5
E) 1, 2

**10**. Afrika və Avstraliya materiki üçün oxşar olan hansı xüsusiyyətlər Cənubi Amerika materiki üçün səciyyəvi ***deyil***?
1. Çöl təbii zonasına rast gəlinmir.
2. Codyarpaqlı meşə və kolluqlara rast gəlinir.
3. İqlim qurşaqları təkrar olunur.
4. Çayları iki okean hövzəsinə aiddir
5. Fiziki aşınmanın intensiv getdiyi landşaftlar daha böyük sahə tutur.
6. Daxili axarsız hövzənin sahəsi daha böyükdür.
A) 1, 2, 4
B) 2, 3, 4
C) 3, 5, 6
D) 1, 5, 6
E) 4, 5, 6

**11.** Rusiya Federasiyası tərkibində olan türk dövlət qurumlarını qruplaşdırın.
I Sibir
II Şimali Qafqaz
III Ural-Volqaboyu
a. Tatarıstan
b. Kabarda-Balkar
c. Tıva (Tuva)
d. Çuvaşiya
e. Sintzyan-Uyğur
f. Xakasiya
h. Qaraçay-Çərkəz
j. Qaqauziya
A) I- a, f, c; II- b, d; III- e, h, j
B) I- c, d; II- a, b, e; III- f, h, j
C) I- c, f; II- b, h; III- a, d
D) I- c, d; II- b, h; III- a, f
E) I- f, h, j; II- b, c; III- a, d

**12**. Şimali Atlantik və Norveç cərəyanlarının Avropa qitəsinə təsiri ilə bağlı düzgün fikirlər:
I Sahil ərazilərdə buxarlanma ilə buxarlanma qabiliyyəti arasındakı fərqi azaldır.
II Ağ və Kara dənizlərinin domasının qarşısını aldığı üçün, bu dənizlərdən gələn hava kütlələri yağıntının kəskin artmasına səbəb olur.
III Sahil sularının duzluluğunu artırdığı üçün mərcan adaları yaranır.
IV Mülayim dəniz iqlim tipinin daha da şimal ərazilərdə yayılması üçün təbii şərait formalaşdırır.
A) yalnız I
B) I, II, III
C) III, IV
D) I, IV
E) I, II

**13.** Verilmiş dağlara və cədvələ əsasən uyğunluğu müəyyən edin.
1. Atlas
2. Ural
3. Pamir
4. Sixote-Alin
5. Karpat
6. Altay

| № | *Dağlar* | *Ümumi* ***olmayan*** *xüsusiyyətlər* |
|---|---|---|
| I | 1, 2, 3 | Qütb gecə və gündüzləri müşahidə edilmir. |
| II | 2, 4, 6 | Eyni ölkə ərazisində yerləşir və eyni geoloji eralarda yaranıblar. |
| III | 1, 4, 6 | Mülayim işıqlanma qurşağında yerləşirlər. |
| IV | 4, 5, 6 | İki yarımkürədə yerləşirlər. |
| V | 1, 4, 5 | Ərazilərindən axan çaylar bir okeanın sutoplayıcı hövzəsinə aiddir. |
| VI | 2, 3, 6 | Paleozoy erasında yaranıblar. |

A) III, IV, V
B) I, II, VI
C) I, V, VI
D) I, II, V
E) II, III, V

**14.** A məntəqəsi XVIII saat qurşağının orta meridianı üzərində, B məntəqəsi isə VI saat qurşağının orta meridianı üzərində yerləşir. 40° şimal enliyində yerləşən bu məntəqələr arasındakı ən qısa məsafənin 1: 60 000 000 miqyaslı xəritədə neçə santimetr olduğunu müəyyən edin.
A) 32,4
B) 22,5
C) 16,4
D) 25,6
E) 18,5

**15.** Cədvələ əsasən uyğunluğu müəyyən edin

| № | Çaylar | Doğru fikirlər | Yanlış fikirlər |
|---|---|---|---|
| 1 | Nil | Mənsəbi ilə mənbəyinin yerləşdiyi ərazi eyni iqlim qurşağında yerləşir. | Mavi Nil qolu Viktoriya gölündən başlayır. |
| 2 | Volqa | Yerləşdiyi ölkə Moldova ilə həmsərhəddir. | Mənsəbi Amudərya çayının mənsəbi ilə eynidir. |
| 3 | Parana | Sutoplayıcı hövzəsi iki işıqlanma qurşağında yerləşir və aid olduğu okeanın sahəsi genişlənir. | Yerləşdiyi materikdə musson iqlim tipinə rast gəlinir. |
| 4 | Mekonq | Düşməsi Volqa çayının düşməsindən daha böyükdür. | Banqladeş ərazisindən keçir. |
| 5 | Kolorado | Yukon çayı ilə eyni okean hövzəsinə aiddir. | Dib eroziyanın təsiri nəticəsində yaranan relyef formaları yoxdur. |
| 6 | Murrey | Hind okeanı hövzəsinə aiddir və yerləşdiyi ölkə iki yarımkürədə yerləşir. | Mənsəbi Xuanxe çayının mənsəbi ilə eyni okeanda yerləşmir. |

A) 1, 4, 5
B) 1, 2, 6
C) 2, 3, 5
D) 2, 3, 6
E) 3, 4, 5

**16**. XIII və XX saat qurşaqlarının hansı oxşar cəhəti VIII saat qurşağı üçün fərqlidir?
1. Üç yarımkürədə yerləşir.
2. Keçdiyi okeanlardan biri dörd yarımkürədə yerləşir.
3. Üç materik ərazisindən keçir.
4. Şimal yarımkürəsinin ən aşağı temperaturunun müşahidə olunduğu məntəqənin yerləşdiyi materikdən keçmir.
5. Keçdiyi materiklərdə mütləq monarxiya idarəetmə formasına malik olan ölkə yoxdur.
6. Eyni ölkə ərazisindən keçir.

A) 4, 5, 6 B) 1, 3, 5 C) 2, 3, 4 D) 1, 4, 5 E) 2, 3, 6

**17**. Cədvələ əsasən uyğunluğu müəyyən edin.

| № | Şimali Amerika | № | Cənubi Amerika |
|---|---|---|---|
| 1 | Ərazisi üç yarımkürədə yerləşir və ərazisindən axan çaylarda həm raftinq, həm də avarçəkmə idman növlərini inkişaf etdirmək imkanları mövcuddur. | 4 | Yer kürəsi orbit müstəvisinə 68° meyilli olarsa Şimal tropik xətti onun şimal hissəsini kəsməz. |
| 2 | Bütün ölkələrinin dünya okeanına birbaşa çıxışı mövcuddur. | 5 | Ərazisindən axan ən uzun çayın bolsululuq dövrü Temza çayının bolsululuq dövrü ilə nisbətən oxşardır. |
| 3 | Ərazisində Kimmeri qırışıqlığında yaranmış relyef formalarına yalnız Kanada və ABŞ-da rast gəlinir. | 6 | Yerləşdiyi litosfer tavası Qərb tərəfində yerləşən Sakit okean tavası ilə toqquşaraq And dağlarının yaranmasına səbəb olmuşdur. |

A) 1, 5, 6 B) 2, 4, 5 C) 1, 2, 3 D) 4, 5, 6 E) 2, 3, 4

**18.** 80° cənub enliyində qütb gecələrinin başlandığı tarixdə Qütb ulduzunun (Polaris) görünmə bucağı ilə günəş şüalarının günorta vaxtı düşmə bucaqları bərabər olan coğrafi enliyə aid olan xüsusiyyətləri seçin.
1. Çevrəsinin uzunluğu, Bakı şəhərinin yerləşdiyi paralel çevrəsinin uzunluğundan daha böyükdür.
2. Mülayim işıqlanma qurşağında yerləşir.
3. İki materik və üç okean ərazisi ilə kəsişir.
4. Günorta vaxtı il ərzində şaquli cisimlərin kölgəsinin istiqaməti yalnız şimal tərəfə düşür.
5. Qütb dairələrinə qədər olan ən qısa məsafə eynidir.
A) 1, 4 B) 1, 3 C) 2, 5 D) 2, 4 E) 2, 3

**19.** Xəritə-sxemə əsasən Arpaçayın, Parağaçay molibden yatağının, Batabat gölünün, Qıvraq qəsəbəsinin yerləşdiyi müvafiq inzibati rayonlar:




A) 7, 6, 3, 4
B) 4, 5, 1, 7
C) 5, 6, 1, 4
D) 1, 3, 5, 4
E) 2, 5, 6, 1

**20.** ***A*** *çayının yerləşdiyi materikdə gecə və gündüzün adi növbələşməsi pozulmur və bu materik üç işıqlanma qurşağında yerləşir. Eroziya bazisi Neva çayının eroziya bazisi ilə eyni okeandır. Ruapexu vulkanı ilə eyni işlqlanma qurşağında yerləşir.*
Mətndə verilmiş ***A*** çayı ilə bağlı hansı fikirləri doğru hesab etmək olar?
1. Barkli platosu ilə eyni materikdə yerləşirlər.
2. Mənsəbi mülayim işıqlanma qurşağında yerləşir.
3. Sahəsi fasiləsiz olaraq kiçilən (qədim) okeanın sutoplayıcı hövzəsinə aiddir.
4. Aid olduğu materik mülayim iqlim qurşağında yerləşmir.
5. La-Plata ovalığı ilə eyni yarımkürələrdə yerləşir.
6. Axdığı ərazi platformadır.
A) 4, 5, 6
B) 1, 3, 5
C) 2, 3, 6
D) 1, 2, 5
E) 2, 4, 6

**21.** Qarabağ iqtisadi rayonu üçün hansı fikirlər doğrudur?
1. Zəngilan inzibati rayonu ilə həmsərhəddir.
2. Tərkibinə Beyləqan inzibati rayonu daxildir.
3. Tərkibinə daxil olan Xankəndi şəhəri inzibati-rayon mərkəzi deyil.
4. Ərazisində yarımsəhra landşaftlarına rast gəlinir.
5. Ərazisində Sərsəng və Suqovuşan su anbarları, Qaragöl qoruğu yerləşir.
6. Hadrut qəsəbəsi və Ağdərə şəhəri yerləşir.
A) 1, 4, 6 B) 3, 4, 5 C) 3, 4, 6
D) 2, 3, 5 E) 1, 2, 5

**22.** ***A*** *dənizi üç yarımkürədə yerləşir və bu dənizə ölkəmizlə həmsərhəd olan ölkələrdən birinin ərazisindən axan bəzi çaylar tökülür.* ***A*** *dənizinin sahillərində yerləşən bütün ölkələr ərazi-inzibati quruluşuna görə federasiyadır.*

Mətnə əsasən A dənizi üçün doğru fikirləri müəyyən edin.
1. Coğrafi mövqeyinə görə daxili dənizdir.
2. Okeanla sərhədində adalar qövsü yerləşir.
3. İki materikdən başlayan çayların eroziya bazisidir.
4. Sahillərini yuduğu ölkələrdən biri və ya bir neçəsi OPEC (OPEK) təşkilatının üzvüdür.
5. Sahillərini yuduğu ölkələrdə təbii artımın I tipi səciyyəvidir.
6. Aid olduğu okean bütün saat qurşaqlarında yerləşir.
A) 2, 3, 5 B) 2, 3, 4 C) 3, 5, 6
D) 1, 2, 4 E) 1, 5, 6

**23.** Cədvəldəki ***uyğunsuzluğu*** müəyyən edin.

| | | |
|---|---|---|
| A) | Böyük və Kiçik Qafqaz tektonik qalxma zonalarında intensiv parçalanmış yüksək qırışıq-qaymalı nival buzlaq relyef tiplərinə rast gəlinir. | *doğru* |
| B) | Kap və Draqon (Əjdaha) dağlarının yerləşdiyi litosfer tavası yalnız materik mənşəlidir. | *yanlış* |
| C) | Ölkəmizdə günəş radiasiyanın ən yüksək həddə çatdığı ərazilərdə, ən yüksək orta illlik temperatur müşahidə edilir. | *doğru* |
| D) | Afrika materikində ekvatorial iqlim qurşağı qərbdən-şərqə tam zolaq təşkil edir. | *yanlış* |
| E) | Pamir, Alp və Krım dağları geosinklinalın platformaya çevrilməsinin üçüncü mərhələsindədir. | *doğru* |

**24**. Doğru ***olmayan*** fikirləri müəyyən edin.
1. Konturlu şərti işarələrlə coğrafi obyektin yalnız uzunluğu hesablanır.
2. Gemorfologiya həm endogen həm də ekzogen qüvvələrin təsiri ilə yaranan relyef formalarını öyrənir.
3. Baş miqyasla icmal xəritələrin bütün hissələrində dəqiq ölçü işləri aparmaq olar.
4. Fiziki xəritələrdə yaşıl rənglə meşə və çəmən landşaftı təsvir edilmir.
5. Coğrafi proqnozlaşdırma yalnız təbii təsirlər nəticəsində baş verəcək dəyişikliklərin əvvəlcədən müəyyən edilməsidir.
6. Bütün xəritələrdə dərəcə toru mövcuddur.
A) 1, 3, 4
B) 2, 4, 6
C) 2, 3, 5
D) 1, 2, 6
E) 1, 3, 5

**25.** Əhalisinin sayı 100 milyon nəfərdən çox olan ölkələri seçin:
1. Pakistan
2. Kanada
3. İndoneziya
4. Fransa
5. Nigeriya
6. Argentina
A) 2, 4, 6 B) 1, 3, 5 C) 1, 2, 3 D) 3, 4, 6 E) 1, 2, 5